www.525.az Facebook.com/525-ci qəzet - 525.az Instagram.com/525ciq

# Milli Məclisdə mədəniyyət sahəsi ilə bağlı müzakirə

## ADİL KƏRİMLİ MƏDƏNİYYƏT NAZİRLİYİNİN ƏVVƏLKİ RƏHBƏRLİYİNİN KADR SİYASƏTİNİ SƏRT TƏNQİD EDİB



"Mədəniyyət sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi və formalaşdırılması önəmlidir. Bu, çox zəruri və əhəmiyyətli məsələdir. Qısa zaman ərzində mədəniyyət sahəsində mövcud vəziyyətin təhlili ilə məşğul olmuşuq". Bunu mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini müvəqqəti icra edən Adil Kərimli deyib.

"Artıq təyinatımdan iki ay keçib. Bu müddət ərzində tam şəkildə mədəniyyət sferasında baş verən prosesləri, infrastruktur, kadr potensialı ilə bağlı təhlil mərhələsindən keçməkdəyik. Problemlərlə daha yaxından tanış oluruq. İnstitusional səviyyədə problemləri gördükcə bu sahədə çoxlu qüsurların mövcud olduğunun şahidi oluruq. Mədəniyyət sahəsinə hökumət tərəfindən hər zaman xüsusi diqqət və qayğı var", - deyə o bildirib.

A.Kərimli söyləyib ki, hər hansı səbəbdən kadr yanaşmaları fərqli istiqamətdə olub. Onun sözlərinə görə, xüsusilə də burada subyektiv səbəblər çoxdur: "Bu sahədə geniş müzakirələrə ehtiyac var. Qeyri-maddi mədəni irs sahəsi tək Mədəniyyət Nazirliyinin sahəsi deyil. Problem ondan ibarətdir ki, cəmiyyətin bu sahəni ayrı və fərqli kateqoriya kimi kənardan müşahidə etmək yanaşması var. Amma bu bizim bəlamızdır. Cəmiyyətin hər bir üzvünün əsas istəyi məhz mədəniyyət sahəsinin inkişafı olmalıdır. Aidiyyəti şəxsləri bu işə cəlb etməsək bu prosesdə hər hansı uğurun qazanılmasından və irəliləməsindən söhbət aça bilmərik".

Adil Kərimli Milli Məclisdə "Qeyri-maddi mədəni irs haqqında" qanun layihəsinin müzakirəsi deyib ki mədəniyyət sahəsinə dair qanunvericiliyin sistemləşdirilməsinə ciddi ehtiyac var: "Çünki burada parakəndəlik mövcuddur".

Onun sözlərinə görə, qeyri-maddi sözü "əllə toxunula bilməyən" mənasını verir: "Bu sözün Azərbaycan ekvalentinə uyğun doğru anlayışı əhatə edən termin tapa bilsək böyük uğur olar. Bununla həm Azərbaycan dilinin inkişaf etdirilməsi, həm də gələcəkdə qanunvericilikdə daha doğru, səlist ifadəsinə zəmin yaratmış olarıq".

A.Kərimli bildirib ki, bəzən eyni anlayışı ifadə etmək üçün bir neçə termindən istifadə olunur: "Bu da ən ciddi problem yaradan məqamlardan biridir. Cəmiyyət, qanunu tədbiq edən şəxslər, onu oxuyub anlamaq istəyən sadə insanlar üçün bu çox ciddi çaşqınlıq yaradır. Eyni mənada eyni məfhumu ifadə etmək üçün bir neçə terminlərin istifadəsi yanlış yanaşmadır. Taftoloji yanaşmalardan uzaqlaşmağa da ehtiyac var. Mədəniyyət Nazirliyinin mövqeyi budur. Qanun layihəsinin müzakirəsi və gündəmə çıxarılması aktualdır. Ancaq layihənin üzərində işlənilməsinə ehtiyac var".

O həmçinin deyib ki, orta ixtisas təhsili olmayan şəxslər kitabxanalarda rəhbər vəzifələrdə çalışır. Onun sözlərinə görə, bu gün Azərbaycanda 7000-ə yaxın mədəniyyət müəssisəsi var: "Bu müəssisələrdə ciddi problemlər var. Onların infrastrukturları, demək olar ki, yoxa çıxıb. Ucqar kəndlərdə yerləşən kitabxanaların da vəziyyəti olduqca acınacaqlıdır. Kitab təminatında da ciddi problemlər var. Həmin müəssisələrdə çalışan kadr potensialı bərbad durumdadır. Hətta orta ixtisas təhsil olmayan şəxslər kitabxanalarda rəhbər vəzifələrdə çalışır. Prosesə kompleks yanaşmaq lazımdır. Hazırda məsələ ilə əlaqəli ciddi araşdırma və təhlil aparılır. Həmin müəssisələrin faydalılığı da yoxlanılmalıdır".

A.Kərimli bildirib ki, islahatların doğru aparılmasında hər kəsin dəstəyinə ehtiyac var: "Çünki bu, tək nazirliyin və ya məmurun işi deyil. Hər kəs bu prosesdə iştirak etməlidir. Mədəniyyət Nazirliyinin tabeliyində olan müəssisələrdə çalışan 41 min şəxsi heyət var. Bunun da təxminən 30 minə yaxını bölgələrdəki mədəniyyət müəssisələrində çalışır. Aparılan təhlillərə görə, onlardan 30 mininin cəmi 7 faizinin mədəniyyət və incəsənət sahəsində yalnız orta ixtisas təhsili var. Bu sahədə ciddi islahat aparılmalıdır".

O həmçinin bildirib: "Ucqar kəndlərdə kitabxanaların və orada 20 min kitab fondunun olduğu deyilir, amma baxırsan ki, heç 2 min kitab yoxdur. Kənddə yaşayan əhalinin həmin kitabları oxuyub-oxumaması sualına cavab tapmaq lazımdır. Mədəniyyət müəssisələrində çalışan və büdcədən əmək haqqı alan 30 min işçinin hamısı yerlərdədir. Onlar Azərbaycan mədəniyyətlərinə töhfə verə bilirmi? Xeyr. Bunu da hamı bilir".

Onun sözlərinə görə, bu sahədə ciddi işlərin görülməsi önəmlidir: "Bəlkə bu yükü azaldıb mədəniyyətin zəruri olan sferasına yönəldə bilərik. Mətbuatda da haqlı olaraq qeyd olunur ki, tarixi mədəni abidələrimiz təhlükədədir. Bu gün 6308 tarixi mədəni abidəmizin 4000-ə yaxını məhz nazirliyin nəzarətindədir. Təbii ki, həmin abidələrə mütəmadi şəkildə investisiya ayrılır. Bu gün 700-800 tarixi mədəniyyət abidəsi məhz işğaldan azad olunmuş ərazilərdə qeydiyyata alınıb və proses davam edir. Onların bərpasına da ciddi ehtiyac var. Hamı düşünür ki, bu işlərin hamısını Mədəniyyət Nazirliyi həll etməlidir".

A.Kərimli qeyd edib ki, abidələri qorumaq üçün sanki vətəndaşların öhdəliyi yoxdur: "Onları qınamaq da olmaz, bəlkə də maarifləndirmə işləri düzgün aparılmayıb. Tarixi abidə sayılan binalarda mənzil olan şəxslər məsuliyyət hiss etməlidir ki, dövlət hər zaman bunu qoruya bilməz" (Report.az).